**Frayer metodunun məktəbəqədər təhsilə adaptasiyası**

**Məktəbəhazırlıq qrupu (Ətraf aləmlə tanışlıq məşğələsi)**

**Alt standard:** 2.1.2. Verilmiş mövzu ətrafında danışır və səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.
**Mövzu:** Dərzi peşəsi ilə tanışlıq
**Məqsəd:** Dərzi fəaliyyətinin peşə olduğunu söyləyir, dərzinin geyim tikdiyini bildirir, dərzinin istifadə etdiyi alətləri başqa peşə sahiblərinin (aşpaz, həkim) işlətdiyi alətlərdən (çömçə, qazan, fonendoskop) fərqləndirir.
**İnteqrasiya:** 2.2.2. Bədii nümunə, müşahidə, şəkillər əsasında fikrini sadə şəkildə şərh edir.
**İş forması:** cütlərlə iş
**İş üsulu:** suallar, şaxələndirmə (klaster)
**Təlim nəticəsi:** verilmiş mövzu ətrafında danışır

**Dərzi peşəsi**



**Dərzi paltar hazırlayır**





**uyğundur**



**Uyğun deyil**





**Frayer metodunun məktəbəqədər təhsilə adaptasiyası**

**Məktəbəhazırlıq qrupu (Savad təliminə hazırlıq və nitq inkişafı)**

**Alt standard**: 2.2.4. Hərf və səsləri (səs təhlili üzrə iş, kəsmə əlifba vasitəsilə sözlərin düzülüb, oxunması) fərqləndirir.
**Mövzu:** Dərzi peşəsi ilə tanışlıq
**Məqsəd:** Qış, qar, quş, qarğa sözlərinin “q” səsi ilə başladığını deyir, Q q hərfinin yazılışını məşq edir, top sözünün “q” səsi ilə başlamadığını məyyən edir.
**İnteqrasiya:**1.1.4. Kiçik motor hərəkətlərini (şəkil çəkir, konturdan kənara çıxmayaraq rəngləyir, verilmiş materialı və ya əşyanı hissələrə ayırır və birləşdirir, kontur üzrə kəsir, yapışdırır, quraşdırır, düzür və s.) koordinasiya edir.
2.2.2. Bədii nümunə, müşahidə, şəkillər əsasında fikrini sadə şəkildə şərh edir.
**İş forması:** qruplarla iş
**İş üsulu:** suallar, şaxələndirmə (klaster)
**Təlim nəticəsi:** hərfləri tanıyır, hərf və səsləri fərqləndirir.

**“Q” səsi ilə başlayan sözlər**



**Q hərfini nəyə oxşayır**



**Qq**

**“Q” hərfinə oxşayır**



**“Q” hərfinə oxşamır**



**Frayer metodunun məktəbəqədər təhsilə adaptasiyası**

Məktəbəqədər təhsildə iş üsulllarından biri olan şaxələndirmə-nin (klaster) səmərəli tətbiqi üçün tərbiyəçi-müəllimlərə **"Frayer model"ini** təklif edirik. Təqdim etdiyimiz bu nümunələr məktəbəqədər yaşlı uşaqlara uyğunlaşdırılmışdır. Frayer modelinin məqsədi uşaqlar üçün tanış olmayan anlayışlar, sözlər üzərində düşünüb onların xüsusiyyətlərini müqayisə etmək və fərqləndirmək bacarıqlarını formalaşdırmaq, həmçinin inkişaf etdirməkdən ibarətdir.

Frayer modelini işləyərkən uşaqlar anlayışı, termini, sözü və s. mənasını verilmiş şəkillər üzərində şərh edir, onun əsas xüsusiyyətlərini təsvir edir, ona aid nümunələr təqdim edir.

Bu model həmçinin, mövzu ilə bağlı əvvəlki bilikləri aktivləşdirir və uşaqların yeni biliklər ilə əlaqə yaratmasına dəstək olur. Bu modeli tətbiq edərkən cütlərlə və qruplarla iş formasını seçmək uşaqların əməkdaşlıq bacarıqlarının da inkişafına təkan verir.

Frayer Modeli müxtəlif mövzularda istifadə oluna bilər və daha çox məktəbəhazırlıq və böyük yaş qruplarında səmərəli nəticə verir.

Sizə məktəbəhazırlıq qrupunun Ətraf aləmlə tanışlıq, Savad təliminə hazırlıq və nitq inkişafı məşğələsində istifadə oluna biləcək nümunələri təqdim edirik.